

# Müstəqil Azərbaycanın ilk olimpiya çempionu

**Nə qədər ki, həyat davam edir, nə qədər ki, nəsillər estafeti bir-birinə ötürür, hər dəfə ölkəmizdə olimpiya hərəkatından, Olimpiya oyunlarından söz düşəndə, hamı Azərbaycan Respublikasının 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk olimpiya çempionumuz, əfsanəvi cüdo ustası Nazim Hüseynovun otuz il əvvəl göstərdiyi idman hünərini ona minnətdarlıqla xatırlayacaq.**

Çoxlarınız yaxşı bilirsiniz ki, idmanımız üçün, ölkəmiz üçün həmin xoş hadisə 1992-ci ildə İspaniyada, dünyanın ən nəhəng iki- üç futbol klubundan biri olmasına heç kimin şəkk-şübhə etmədiyi "Barselona " nın təmsil etdiyi eyniadlı şəhərin idman sarayında baş vermişdir. Onda Müstəqil Dövlətlər Birliyi ölkələrinin yığma komandası tərkibində çıxış edən N.Hüseynov tatami üzərində 60 kq çəki dərəcəsində bütün sınaqlardan şərəflə çıxıb XXV Yay Olimpiya Oyunlarının çempionu kimi özünə də, vətəndaşı olduğu sevimli Azərbaycan Respublikasına da heç vaxt unudulmayacaq zəfər sevinci yaşatdı. Elə bir zəfər ki, həmişə hər birimizə əsl fəxarətdir.

Nazim Qalib oğlu Hüseynov tarixi nailiyyəti ilə həm də atasının adına layiq böyük bir zəfərə imza atmış oldu. Çempionun və onun özü kimi məşhur məşqçisi Ağayar Axundzadənin illərlə gərgin məşqlərdə çəkdikləri əziyyət, yorulmaq bilmədən işlətdikləri və icrasını mükəmməl həddə çatdırdıqları "ippon" başda olmaqla rəngarəng fəndlər gözəl bəhrə vermişdi.

Bununla da elə Olimpiada günlərində, nə xoş təsadüf ki, həm də həyata göz açdığı 2 avqust axşamında 23 yaşı tamam olan dünya cüdosunun yeni ulduzu əvvəllər SSRİ, Avropa və dünya çempionatlarında qazandığı qələbə və medallardan da üstün bir mükafata sahib oldu. Olimpiya çempionluğu elə həmin 1992- ci ildə ona sovet dövründə ən şərəfli adlardan biri kimi yalnız ən güclülərin, seçmə idmançıların layiq görüldüyü SSRİ Əməkdar idman ustası adı qazandırdı. Bir qədər sonra, 1995-ci ildən isə sinəsini respublikamızın yüksək dövlət mükafatı "Şöhrət " ordeni bəzədi. Və daha neçə-neçə fəxri adlar, mükafatlar...

Müstəqilliyimizin ilk olimpiya çempionu, hazırda Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü Nazim Hüseynov İspaniyada bir andaca onu dünyada daha da məşhurlaşdıran böyük qələbəsinin növbəti ilində də ölkəmizdə cüdonun, bütünlüklə, olimpiya hərəkatının inkişafına və yeni uğurlarına öz töhfələrini verir.

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**